AzMFK
Azərbaycan Məktəblilərarası Fizika Kuboku

AZƏRBAYCAN MƏKTƏBLİLƏRARASI FİZİKA KUBOKU

AzMFK 2027

MİLLİ SEÇİM TURU ÜZRƏ RƏSMİ TƏLİMAT

Tarix və saat	9 yanvar 2027-ci il, saat 11:00 (Bakı vaxtı ilə)
İştirakçılar	8–11-ci siniflər • vahid kateqoriya
İştirak haqqı	Ödənişsiz
Format və dillər	Əyani və ya onlayn • Azərbaycan və ingilis dilləri
İmtahan	20 test və 5 açıq sual • maksimum 100 bal
Məkanların elanı	2 yanvar 2027-ci il • aypt.az
Milli final	14 fevral 2027-ci il

IYPT-nin Azərbaycan üzrə rəsmi nümayəndəsi

GLOBAL OLYMPIAD CENTER

AzMFK
Azərbaycan Məktəblilərarası Fizika Kuboku

1. ÜMUMİ MƏLUMAT VƏ MƏQSƏD

Salam, əziz şagirdlər və hörmətli valideynlər!

Sizi Azərbaycan Məktəblilərarası Fizika Kubokunun (AzMFK) seçim turuna dəvət edirik. İlk mərhələyə fərdi qaydada qeydiyyatdan keçə bilərsiniz.

Global Olympiad Center (GOC) Beynəlxalq Gənc Fiziklər Turnirinin (IYPT) Azərbaycan üzrə rəsmi nümayəndəsidir. AYPT Azərbaycan üzrə seçim turudur və Azərbaycan Məktəblilərarası Fizika Kuboku (AzMFK) çərçivəsində keçirilir. Seçim turunda şagirdlər fizika üzrə fərdi imtahan verirlər. Milli finala keçənlər isə təcrübə aparır, nəticələrini üçnəfərlik komandalarla təqdim edir və elmi müzakirədə müdafiə edirlər.

2. İŞTİRAKÇILAR VƏ KATEQORİYA

Bütün siniflər üçün vahid yarış
Azərbaycan məktəblərinin 8, 9, 10 və 11-ci sinif şagirdləri eyni kateqoriyada yarışır, eyni fizika suallarını cavablandırır və vahid siyahıda sıralanırlar.

Dil və format. İmtahanı Azərbaycan və ya ingilis dilində, əyani və ya onlayn formada vermək mümkündür. Hər iki dil üzrə sualların məzmunu və qiymətləndirmə meyarları eynidir.

3. QEYDİYYAT VƏ İMTAHAN MƏKANI

Qeydiyyat. aypt.az saytındakı formada adınızı, soyadınızı, məktəbinizi, sinfinizi, əlaqə məlumatınızı və imtahan dilini göstərin. Əyani iştirak üçün şəhər və ya rayonu qeyd edin. Təsdiq bildirişinizi və iştirakçı kodunuzu saxlayın.

Təşkilat Komitəsi qeydiyyatın sayına və regional bölgüsünə uyğun mərkəzləri seçəcək. Məkanların adları və dəqiq ünvanları imtahana bir həftə qalmış aypt.az saytında açıqlanacaq.

Rəsmi bildiriş
Mərkəzlərin adları və dəqiq ünvanları 2 yanvar 2027-ci ildə aypt.az saytında elan ediləcək. İmtahana gəlməzdən əvvəl sizə aid mərkəzi və giriş vaxtını yoxlayın.

4. İMTAHANIN STRUKTURU VƏ QİYMƏTLƏNDİRMƏ

Tapşırıq	Say	Bir tapşırıq	Maksimum
Test	20	2 bal	40 bal
Açıq sual	5	0–12 bal	60 bal
Yekun	25	—	100 bal

Test. Hər sualda yalnız bir yekun cavab seçin. Düzgün seçim 2 baldır. Səhv, boş və ya birdən çox variant işarələnmiş test 0 baldır. Ümumi nəticədən bal çıxılmır.

Açıq sual. Həll yolunu, tətbiq etdiyiniz qanunu və hesablamanı göstərin. Nəticəni uyğun ölçü vahidi ilə yazın. Qismən düzgün həll tapşırığın meyarına əsasən bal alır.

Bal necə hesablanır?
15 düzgün test = 30 bal. Açıq suallardan müvafiq olaraq 10, 8, 12, 6 və 4 bal aldıqda bu hissənin cəmi 40 baldır. Yekun nəticə 70/100 olur.

5. SİLLABUS VƏ NÜMUNƏ SUALLAR

Hazırlıq materialı	Paylaşılma vaxtı
İmtahan proqramı (sillabus)	Yaxın günlərdə aypt.az saytında paylaşılacaq.
Nümunə suallar	2027-ci ildə paylaşılacaq. Dəqiq tarix ayrıca elan ediləcək.

6. NƏTİCƏLƏR VƏ MİLLİ FİNALA KEÇİD

8–11-ci sinif şagirdləri yekun bala görə vahid siyahıda sıralanırlar. Final yerləri faktiki iştirakçı sayının 10 faizi əsasında hesablanır. Alınan say üçə bölünmürsə, üçnəfərlik komandaları tamamlamaq üçün siyahıdakı növbəti şagirdlər də dəvət olunur. Məsələn, 110 iştirakçı olduqda 12 şagird finala keçir və 4 komanda yaradılır.

Son keçid yerində ümumi bal bərabərdirsə, açıq suallar üzrə balı yüksək olan şagird üstünlük qazanır. Bərabərlik qalarsa, əlavə açıq tapşırıq verilir. Nəticəyə yenidən baxılmasını istəyən şagird elan edilən müddətdə iştirakçı kodunu, sual nömrəsini və müraciətinin əsasını təqdim edir.

Finalçılara tədqiqat mövzuları göndərilir. Onlar 14 fevral 2027-ci ildə üçnəfərlik komandalarla milli finalda çıxış edəcəklər. Həlledici görüşə çıxan üç komandanın doqquz üzvü arasından beş şagird fərdi nəticələrinə görə Azərbaycan milli komandasına seçiləcək.

7. ƏYANİ İMTAHAN QAYDALARI

Zala giriş. Təsdiq bildirişində göstərilən mərkəzə vaxtında gəlin. Nəzarətçinin göstərişi ilə zala daxil olun və ayrılmış yerdə əyləşin.

Başlamazdan əvvəl. Sual kitabçasının dilini və səhifələrini, cavab vərəqini və iştirakçı kodunu yoxlayın. Səhifə çatışmırsa və ya çap oxunmursa, nəzarətçiyə bildirin.

Cavabların təhvili. Vaxt tamamlandıqda yazını dayandırın. Zaldan çıxmazdan əvvəl test cavablarını və açıq həllərin bütün səhifələrini nəzarətçiyə təhvil verin.

8. ONLAYN İMTAHAN QAYDALARI

Giriş və göndəriş. Təsdiq bildirişində göstərilən hesabla platformaya daxil olun. Yüklənən həllərin oxunaqlı və tam olduğunu yoxlayın. İmtahan vaxtı bitməzdən əvvəl cavabları göndərin və təsdiqi saxlayın.

Texniki nasazlıq. Bağlantı kəsilərsə və ya fayl yüklənməzsə, dərhal bildirişdəki dəstək kanalına yazın. İştirakçı kodunuzu, vaxtı və təsirlənən sualın nömrəsini göstərin.

9. AKADEMİK DÜRÜSTLÜK VƏ NİZAM-İNTİZAM

Hər iki iştirak forması üçün
Köçürmək, cavabı başqasına göstərmək və ya göndərmək, kənardan kömək almaq və başqasının həllini öz adınızdan təqdim etmək qadağandır.

Vasitələr. Yalnız təşkilatçıların icazə verdiyi vasitələrdən istifadə edin. İmtahan ərzində telefon, ağıllı saat, qulaqcıq və digər cihazlarla cavab axtarmaq və ya yazışmaq qadağandır. Onlayn iştirak üçün nəzərdə tutulan cihazdan imtahan platforması və rəsmi texniki dəstək üçün istifadə edin.

Sual vermək. Çap, giriş və ya təhvillə bağlı kömək istəyə bilərsiniz. Nəzarətçi tapşırığın həllini izah etmir və cavab seçiminə yön vermir. Qayda pozuntusu qeydə alınarsa, qərardan əvvəl iştirakçının izahı alınır.

10. RƏSMİ ELANLAR VƏ MÜRACİƏTLƏR

Qeydiyyat, imtahan məkanları və hazırlıq materialları haqqında elanları aypt.az saytından izləyin. Nəticəyə yenidən baxılmasını istəyirsinizsə, elanda göstərilən müddətdə iştirakçı kodunu, sual nömrəsini və müraciətinizin səbəbini bildirin.

Global Olympiad Center bütün iştirakçılara uğurlar arzulayır!